# Sahibkarlığın inkişafında yeni mərhələ

**Ölkə ictimaiyyəti Prezident İlham Əliyevin təşəbbüsü ilə Milli Məclisdə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunun qəbulunu, imzalanan sərəncam və fərmanları özəl sektorun inkişafı üçün atılan inqilabi addımlar kimi qiymətləndirir**



Prezident İlham Əliyevin rəhbərliyi ilə hələ böyük neft gəlirlərinin ölkəyə daxil olmasından əvvəl qeyri-neft sektorunun, orta və kiçik sahibkarlığın, regionların və kənd təsərrüfatının inkişafı ilə bağlı iqtisadi islahatların davam etdirilməsi, iqtisadiyyatın şaxələndirilməsinə yönələn proqramların davamlı icrası qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsinin stimullaşdırılmasına böyük töhfələr vermişdir. Dövlət başçısının dərin elmi əsaslara söykənən iqtisadi siyasəti ilə ölkəmizdə qeyri-neft sektorunun daha da inkişaf etdirilməsində əsas prioritet kimi qəbul edilən kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi sahələrinin inkişaf tempinin qorunub saxlanılması və artırılması üçün konkret hədəflər müəyyənləşdirilmişdir. Sənayeləşmə siyasətinin sürətlənməsi, ağır sənayenin inkişafı ilə bağlı böyük layihələrin icrası, texnoparkların, sənaye zonalarının yaradılmasının davam etdirilməsini, investisiyaların cəlb edilməsi və xarici bazarlara investisiyaların qoyulması, sahibkarlığın inkişafı, daxili istehsalçılara daha əlverişli şəraitin yaradılması və s. kimi hədəflər müəyyən edilmişdir. Ölkə başçısı tərəfindən sosial proqramların icrası, sosial infrastrukturun daha da inkişaf etdirilməsi, yoxsulluğun azaldılması, ərzaq təhlükəsizliyinin tam təmin edilməsi üçün qarşıya mühüm vəzifələr qoyulmuşdur. Son illərdə respublikamızda inkişaf meyillərinə mane ola biləcək mənfi halların aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinə xüsusi diqqət göstərilməsi, rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə qanunvericilik bazası möhkəmləndirilmiş, ölkə başçısı tərəfindən fərman və sərəncamlar verilmiş, qanun və qərarlar qəbul edilmişdir.

Prezident İlham Əliyev sahibkarlara qarşı qanunsuz tələblərin irəli sürülməsinin dövlətə xəyanət olduğunu dəfələrlə vurğulayıb: "Kimsə varlanmaq üçün gəlsin sahibkarları boğsun ki, sahibkar qapısına qıfıl vurub çıxıb getsin. Bu, dözülməz haldır. Yəni bunu edən dövlətə xəyanət edir. Bunu edən, sadəcə olaraq, pul qazanmır, dövlətə xəyanət edir. Mən bunu belə qəbul edirəm, hamı bunu bilsin və nəticə çıxarsın".

Prezident İlham Əliyev hər zaman sahibkarlara dəstək verməklə yanaşı, sahibkarlıq fəaliyyətinə yersiz müdaxilələrə də qarşı olduğunu bəyan edərək ölkəmizdə sahibkarlığın inkişafı üçün ən yüksək səviyyədə siyasi iradə nümayiş etdirib. Ölkə ictimaiyyəti, iş adamları, bizneslə məşğul olanlar daim dövlət başçısının azad və liberal sahibkarlığın müdafiəçisi və təşviqatçısı olduğunu bildirirlər.

"Sahibkarlığın inkişafında yeni mərhələ: hədəflər və imkanlar" mövzusunda keçirilən konfransda iştirak edən sahibkarlar Prezident İlham Əliyevə müraciət edərək bildiriblər ki, məhz ölkə başçısının düşünülmüş və məqsədyönlü siyasəti sayəsində regionun lider dövlətinə, siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilmiş Azərbaycan Respublikası bu gün özünün hərtərəfli inkişafını davam etdirir: "Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasının uğurla davam etdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində böyük uzaqgörənliklə qəbul etdiyiniz qərarlar, həyata keçirdiyiniz qabaqlayıcı tədbirlər dünya iqtisadiyyatındakı mürəkkəb proseslərin, geosiyası risklərin Azərbaycan iqtisadiyyatına mənfi təsirini neytrallaşdırır, ölkəmiz bu neqativ meyillərə qarşı yüksək dayanıqlıq nümayiş etdirir. Sizin rəhbərliyinizlə aparılan genişmiqyaslı işlərin nəticəsidir ki, son illərdə iqtisadiyyatın artımı qeyri-neft sektoru hesabına təmin edilir".

Sahibkarların müraciətində qeyd edilir ki, son günlərdə Prezident İlham Əliyevin imzaladığı sənədlər, qəbul etdiyi qərarlar bir daha təsdiq edir ki, ölkəmizdə biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi üçün sistemli işlər görülür.

İqtisadçı ekspertlər, iş adamları, ölkə ictimaiyyəti sahibkarlıq fəaliyyətinə əsaslı müdaxilələrin, sui-istifadə hallarının qarşısının alınması, şəffaflığın təmin olunması, gömrük və lisenziyalaşdırma sahəsində inzibati prosedurların sadələşdirilməsi məqsədilə özəl sektorun inkişafında köklü dəyişikliklərə aparan və ölkə başçısının təşəbbüsü ilə Milli Məclisdə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunun qəbulunu, imzalanan fərmanları, illik dövriyyələri 120 min manatdan aşağı olan və sadələşdirilmiş qaydada vergi ödəyən sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin (əmək müqavilələrinin bağlanmasına və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması istisna olmaqla) keçirilməsinin müvəqqəti dayandırılmasını sahibkarlığın inkişafı üçün atılan inqilabi addımlar kimi qiymətləndirirlər.

Bu gün birmənalı olaraq demək lazımdır ki, sahibkarlığa qarşı müdaxilələrin aradan qaldırılması, iş adamlarının hüquqlarının qorunması üçün Prezident İlham Əliyevin həyata keçirdiyi tədbirlər, verdiyi göstərişlər olduqca mühüm əhəmiyyət kəsb edir. Çünki bundan sonra sahibkarların fəaliyyətinə yersiz müdaxilələr aradan qaldırılacaq və bunun sayəsində iş adamları öz işlərini daha səmərəli quracaq, dövlət qarşısında real öhdəliklərini lazımi səviyyədə yerinə yetirə biləcəklər. Bir sözlə, ölkə başçısının bu sahədə həyata keçirdiyi unikal tədbirlər sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin formalaşdırılması baxımından yeni bir mərhələnin başlanğısı kimi tarixə düşəcəkdir.

**Zahid Rza,**
***"İki sahil"***